# Hesablama Palatası tərəfindən 2023-cü ildə keçirilmiş dövlət satınalmalarına dair Hesabata açıqlama

Hesabat ilində Hesablama Palatası tərəfindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş metodlar tətbiq edilməklə satınalmalar keçirilmiş və 420,3 min manat məbləğində 13 müqavilə bağlanılmışdır.

Bu müqavilələrin 8-i rəqabətli satınalma metodları tətbiq edilərək bağlanılmış, burada müqavilələrin ümumi məbləği 283,8 min manat (satınalma metodları tətbiq edilməklə bağlanılmış müqavilələrin ümumi məbləğinin 67,5%-i) təşkil etmişdir. Rəqabətli satınalma metodlarının say baxımından 75,0%-i ilin birinci yarısında, 25%-i isə ilin ikinci yarısında tətbiq edilmişdir. Məbləğ ifadəsində bu göstəricilər 58,0% və 42,0% olmuşdur.

Hesabat ilində rəqabətli metodlar tətbiq olunmaqla keçirilmiş bütün (100%) satınalmalar elektron satınalma formasında olmuşdur ki, bu da İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (*OECD*) tərəfindən yaxşı göstərici hesab olunur.

Hesablama Palatası tərəfindən 2023-cü il ərzində keçirilmiş elektron satınalmaların həmin il üçün təsdiq edilmiş satınalma planı ilə müqayisəsi göstərir ki, bütün satınalmalar üzrə faktiki satınalma predmeti, tətbiq olunmuş satınalma metodu, habelə işlərin görülməsi və malların çatdırılma müddəti plana (100%) tam uyğun olmuşdur. Satınalmanın keçirilməsi müddətinə gəldikdə isə bəzi hallarda təsdiq edilmiş ayla müqayisədə satınalma bir qədər gec (2 satınalma üzrə 1 ay, 2 satınalma üzrə 2 ay və daha gec) icra olunmuşdur. Bu istiqamətdə yaranan fərq həm də bir xərc istiqaməti üzrə əvvəlcədən nəzərdə tutulmayan tədbirlərin maliyyə təminatının yaradılması üçün dövlət büdcəsinə yenidən baxılma zamanı dəyişikliklərin təklif olunması və bununla əlaqədar xərclərin təsdiqindən sonra satınalmaya başlanılması ilə əlaqəlidir.

Keçirilmiş satınalmalar zamanı qalibin seçilməsi üçün aşağı qiymət meyarına əsaslanılmışdır. Satınalma metodu tətbiq olunmaqla keçirilən satınalmaların hər birində qanunvericiliklə müəyyən edilmiş müddətlər gözlənilmiş, qərarların verilməsi müddəti kotirovka sorğusu üzrə 2 günədək, açıq tender üzrə isə 8 günədək olmuşdur ki, bu da qabaqcıl təcrübə ilə müqayisədə (Avropa Birliyi) əhəmiyyətli dərəcədə az olmaqla yaxşı göstərici hesab olunur.

Rəqabətli satınalma metodları tətbiq edilməklə keçirilmiş satınalmalarda ortalama iştirakçı sayı 4 olmaqla mikro, kiçik və orta sahibkarlıq subyektlərini əhatə etmiş və onlarla müvafiq müqavilələr bağlanılmışdır.

Hesabat ilində keçirilən satınalmalar lotlara bölünməmişdir.

Satınalmalarda orta qənaətlilik ehtimal olunan qiymətə münasibətdə 6,4 min manat olmuşdur. Qeyd edək ki, ayrı-ayrı müqavilələr üzrə qənaətin ehtimal olunan qiymətə nisbəti 1,6%-30,6% arasında dəyişmişdir.

Iqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin razılıq məktubuna əsasən 2023-cü ildə bir mənbədən satınalma metodunun tətbiqi ilə 5 müqavilə bağlanılmışdır. Həmin müqavilələrin ümumi məbləği 136,5 min manat (satınalma metodları tətbiq edilməklə bağlanılmış müqavilələrin ümumi məbləğinin 32,5%-i) təşkil etmişdir. Əvvəlki illə müqayisədə bir mənbədən satınalma metodu tətbiq edilməklə bağlanılmış müqavilələrin sayı artsa da (2023-cü ildə 5, 2022-cü ildə 3), müqavilə məbləğində 128,9 min manat azalma qeydə alınmışdır.

Hesabat ilində bir mənbədən satınalma metodu ilə bağlanılmış müqavilələr müxtəlif səbəblərlə izah oluna bilər. Belə ki, bu, xidməti minik avtomobilinin satın alınması xərclərinin maliyyələşməsinin ilin son ayında verilməsi, 2021-2025-ci illər üzrə Strateji Planın 2023-cü il üçün Əməliyyat Planından irəli gələrək Audit Fəaliyyətinin İdarəedilməsi (AFİS) sistemində “Follow-up” modulu üzrə işlərin yekunlaşdırılması və digər təkmilləşdirilmə işlərinin aparılması, habelə sistemə 3 aylıq xidmətin göstərilməsi üçün müqavilənin bağlanılması ilə əlaqədardır.

2023-cü ildə bağlanılmış satınalma müqavilələri üzrə ümumilikdə 395,8 min manat (müqavilə məbləğinin 94,2%-i) icra edilmişdir. Bəzi satınalma müqavilələri üzrə xərclərin faktiki sərfiyyata uyğun aparılması müqavilələrin ümumilikdə 24,5 min manat az icrasını labüd etmişdir. Qeyd edək ki, müqavilənin icrası üzrə alınmış mallar, görülmüş işlər və göstərilmiş xidmətlərin məbləği icra edilmiş vəsaitə bərabər olmuş, müqavilələr üzrə debitor və kreditor borc yaranmamışdır. Müqavilələr üzrə ödəniş müddətlərinə bütün hallarda riayət edilmişdir ki, bu da qabaqcıl təcrübədə (OECD) müəyyən edilmiş meyarlar baxımından yaxşı göstərici hesab edilir.

Yuxarıda göstərilənlərdən əlavə, hesabat ilində qanunvericiliyin tələbləri gözlənilməklə müvafiq metodlar tətbiq olunmadan 313,2 min manatı əhatə edən 57 müqavilə bağlanılmışdır ki, bu məbləğin 282,4 min manatı (25 müqavilə üzrə) qiymətləri dövlət tərəfindən tənzimlənən mal, iş və xidmətlər üzrə, 30,8 min manatı (32 müqavilə) sadə birbaşa qiyməti 5000 manatadək olan müqavilələr üzrə olmuşdur.

## Hesablama Palatasının 2023-cü ildə keçirdiyi satınalmalar üzrə effektivlik göstəriciləri

| S/s | Göstəricinin adı | Ölçü | Qənaətbəxş | Qeyri-qənaətbəxş | Hesablama Palatası üzrə mövcud vəziyyət | Qeyd |
|---|---|---|---|---|---|---|
| **1** | Satınalma planına uyğunluq | əmsalla (0-1 arası) | 1 | 0 | **0,9** | |
| **2** | Satınalmalar üzrə ehtimal olunan qiymətdən kənarlaşma | əmsalla (0-1 arası) | 1 | 0 | **0,5** | |
| **3** | Tender elanlarında natamam məlumatların təqdim edilməsi | faizlə | ≤ 3% | > 3% | 0,0% | |
| **4** | Elektron formada keçirilmiş rəqabətli satınalmalar | faizlə | 100% | | 100% | |
| **5** | Baş tutmayan satınalmalar | faizlə | 0,0 | 100% | 0,0 | |
| **6** | Satınalmalarda tək iddiaçının istirakı (ilin sonunda bölüşdürülməmiş xərc istiqamətindən ayrılmış vəsait nəzərə alınmadan) | faizlə | ≤ 10% | > 20% | 13,0% | |
| 6.1 | Satınalmalarda tək iddiaçının istirakı (bütün xərclər nəzərə alınmaqla) | faizlə | ≤ 10% | > 20% | 32,5% | |
| **7** | Metod tətbiq olunmadan alışlar | faizlə | ≤ 5% | ≥ 10% | 4,2% | *5,0 min manatadək alışların alışyönlü müqavilələrə nisbəti* |
| **8** | Qalibin müəyyən edilməsi meyarı | faizlə | ≤ 80% | > 80% | 100,0% | *Yalnız qiymət meyarından istifadə edilmişdir* |
| **9** | Qərar vermə sürəti | gün | ≤ 120 gün | > 120 gün | 2-8 gün | *Göstərici üzrə yekun protokol nəzərə alınmışdır, açılış və müqavilə tarixləri nəzərə alındıqda bu müddət bütün müqavilələr üzrə 8-34 gün təşkil edir* |
| **10** | Elektron satınalmalar üzrə mikro, kiçik və orta sahibkarlarla bağlanılmış müqavilələr | faizlə | > 60% | < 45% | 100,0% | |
| **11** | Mikro, kiçik və orta sahibkarlardan iddiaçı kimi müraciətlər | faizlə | > 80% | < 60% | 100,0% | |
| **12** | Müqavilələrin lotlara bölünməsi (lotlara bölünən prosedurlar). | faizlə | > 40% | < 25% | bölünməmişdir | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **13** | Satınalmalarla bağlı şəffaflıq | faizlə | 100% | | 100% | |
| 14 | Müqavilələr üzrə satınalma predmetinin təchizatçı tərəfindən təmin edilməsi vəziyyəti | faizlə | 100% | | 99,1% | *Tərəflərdən asılı olan hallar üzrə* |
| 15 | Müqavilələr üzrə ödənilmiş məbləğə qarşı təqdim olunmuş malların və göstərilmiş xidmətlərin (işlərin) dəyəri | faizlə | 100% | | 100% | |
| 16 | Müqavilələr üzrə ödənişinin gecikdirilməsi halları | faizlə | 0,0% | | 0,0% | |

* *Effektivlik göstəriciləri Avropa Birliyi, OECD və digər təşkilatların metodikası nəzərə alınmaqla əks etdirilmişdir.*